Kredo.- 2021.- 11 avqust.- S.16.

# 90 İLİN UCALIĞINDA

Tarix elmləri doktoru, yazıçı-jurnalist Sabir Gəncəli-Məmmədovun “Azərbaycan mətbuatının şəfəqləri” ensiklopedik toplu kitabı (2020) nəşr olunub. Bu kitab Azərbaycan milli mətbuat tarixinin 145 illiyinə çox dəyərli töhfədir. Mənim üçün də xüsusilə ona görə dəyərlidir ki, hələ ilk gəncliyimdən tanıdığım Sabir müəllim bu kitabına belə bir avtoqraf yazıb: “Azərbaycan ziyalılarının sevimli “Kredo” qəzetinin baş redaktoru Əli Rza Xələfliyə nəcib fəaliyyətində böyük uğurlar arzusu ilə. Müəllifdən kiçik bir xatirə. 10.IX.2020”. Sonra da imza. Burada deyirəm ki, Sabir müəllim sənin bütün ağrı-acın “Kredo”nu görməyən və görə bilməyənlərin bəsirət gözünə açar olsun. Bu kitab sözün həqiqi mənasında çox dəyərli bir vəsaitdir. Jurnalistikamızın araşdırıcıları üçün orijinal qaynaqdır. 145 ilin mətbuat tarixini araşdıraraq gəldiyin nəticələr bizi də sevindirir. Bu kitabda “Kredo” qəzeti haqqında məlumatı




da (bəzi təhriflər olsa da) maraqla oxuduq. Sabir Gəncəlinin son sözləritəvazökar şəxsiyyəti və böyük əməli üçün ən yaxşı dəyərdir: “Vətən məhəbbəti və qürur hissi ilə yazdığımız bu ensiklopedik toplu milli mətbuat tarixində son iş deyil. Xalqımız yaşadıqca gözəl, müqəddəs yurdumuz durduqca, xoşməramlı, daha samballı, böyük işlər görəcək, ölkəmizin başını uca edən kitablar, ensiklopediyalar yazılacaqdır. Bu məramda vətən sevgisi ilə fəaliyyət göstərəcək alimlərə, ədiblərə, mətbuat xadimlərinə can sağlığı, tükənməz həvəs, böyük uğurlar və sələflərini unutmayacaqlarını arzu edirik”.

90 yaşlı Sabir müəllimə bundan sonra da uğurlar diləyirik.

***ELVİN***